# Müraciətçinin HTP elektron ərizə üzrə yoxlama siyahısı / “CHECKLIST”

## ÖLKƏ: Macarıstan

| № | Meyarlar | Tələb/Şərt | Uyğunluq - ✓ / ✕ | | Qeyd |
|---|---|---|---|---|---|
| | | | ✓ | ✕ | |
| 1. | Müraçiətçinin 18 yaşına çatması | Müraciət edən namizədlərin yaşı 18 yaşdan (31 avqust 2006-cı ildən əvvəl doğulmuş olmalıdır) aşağı olmamalıdır (“Azərbaycan Respublikasının Təhsil Nazirliyi (TN) ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında 6 yanvar 2021-ci il tarixində imzalanmış 2021-2023-cü illər üçün “Stipendium Hungaricum” proqramına əsasən müvafiq tədris ilində 31 avqust tarixinə qədər 18 yaşı tamam olmayan Azərbaycan Respublikası vətəndaşları təqaüd proqramına müraciət edə bilməzlər). | | | |
| 2. | Hər iki ölkənin elektron ərizəsindən qeydiyyatdan keçmək | Azərbaycan və Macarıstan elektron ərizələri tam doldurulmalı və təsdiq edilməlidir. | | | |
| 3. | Seçilən universitetlərin ardıcıllığı | Hər iki ölkənin elektron ərizəsində seçilmiş universitetlər və ixtisaslar eyni və ardıcıl olmalıdır. | | | |
| 4. | DİM üzrə topladığı bal ( yalnız bakalavriat təhsil səviyyəsi üzrə müraciət edənlər üçün) | Texniki sahə üzrə -400<br>Digər sahələr üzrə -500 | | | |
| 5. | Attestat balı üzrə ÜOMG | - 5 ballıq qiymətləndirmə üzrə- 4 bal | | | |
| 6. | Müvafiq təhsil səviyyəsini tamamlamış olanların Diplom üzrə ÜOMG | - min. 70 bal<br>*Qeyd: Hazırda bakalavriat səviyyəsində Macarıstanda şəxsi vəsaiti hesabına təhsil alan və DİM/SAT göstəricilərinə sahib olmayan namizədlərin ümumi orta müvəffəqiyyət göstəriciləri (ÜOMG-si 100 ballıq sistem üzrə 70-dən az olmamalıdır) əsas götürüləcəkdir.* | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7. | Doktorantlar üçün | 1. Doktorantura üzrə elmi rəhbərin razılıq sənədi (sənədi müraciət edəcəyiniz universitetdən əldə etməlisiniz);<br><br>2. Namizədin tədqiqat işinə dair Azərbaycan dilində məlumat (tədqiqat planı: qısa xülasə, metodologiya, tədqiqat sualı, biblioqrafiya) - 2000 sözdən az olmayan həcmdə (ədəbiyyat siyahısı nəzərə alınmadan);<br><br>3. Namizədin xarici ölkələrin təsir gücünə ("impakt faktor") malik olan, istinad indeksli elmi nəşrlərində dərc olunmuş elmi məqalələri, yaxud həmin məqalələrə elektron keçidlərin (linklərin) siyahısı (əgər varsa). | | | |
| 8. | DİM imtahanlarında iştirak etməyən namizədlərin SAT imtahanı üzrə topladığı bal | Ümumi nəticənin 70 % (min 1100 bal) toplamalıdırlar. | | | |
| 9. | Beynəlxalq olimpiada nəticələri | | | | Əgər varsa |
| 10. | Hazırda təhsil alanlar | -Namizədlər təhsillərinin 50%-ni tamamlamamış olmalıdır;<br>-Cari ÜOMG - min. 70 bal olmalıdır . | | | Bakalavriat təhsil səviyyəsi üzrə I-II, magistratura təhsil səviyyəsi üzrə isə I təhsil illərində təhsil alan şəxslər təhsil aldıqlarına dair müvafiq arayış və qiymət cədvəli (transkript) təqdim etməlidirlər |
| 11. | Dil sertifikatı | -IELTS (min. 6.5)<br><br>-TOEFL (min. 79)<br><br>-Duolingo (min. 120)*<br><br>*Müraciət edilən ali təhsil müəssisəsi qəbul etdiyi təqdirdə. | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 12. | Təhsil haqqında sənəd | Bakalavriat - Attestat və hazırda təhsil aldığına dair arayış (Bakalavriat təhsil səviyyəsi üzrə I-II təhsil illərində olan şəxslər əlavə olaraq qiymət cədvəli (transkript) və təhsil aldığına dair arayış təqdim etməlidirlər);<br><br>Magistratura- bakalavriat üzrə diplom və diplom əlavəsi (Magistratura təhsil səviyyələri üzrə I təhsil ilində olan şəxslər əlavə olaraq qiymət cədvəli (transkript) və təhsil aldığına dair arayış təqdim etməlidirlər);<br><br>Doktorantura - bakalavriat və magistratura üzrə diplomlar və diplom əlavələri (Hazırda doktorantura təhsili alan və təhsilinin 50 faizini tamamlamayan şəxslər əlavə olaraq qiymət cədvəli (transkript) və təhsil aldıqlarına dair arayış təqdim etməlidirlər);<br><br>Xarici ali təhsil müəssisələrinin diplomları - Kvalifikasiyanın tanınmasına dair şəhadətnamə təqdim olunmalıdır.<br><br>**Qeyd:* Müvafiq təhsil səviyyəsi üzrə I kurs I semestr tələbələrindən transkript tələb olunmur. | | | |
| 13. | Motivasiya məktubu | Motivasiya məktubu - təhsil alacağınız ixtisas və Macarıstanda təhsillə bağlı məqsəd və gözləntiləriniz barədə minimum 350, maksimum 500 sözdən ibarət qısa xülasə (Times New Roman 12 şrifti ilə ingilis və ya macar dilində yazılmış). | | | |
| 14. | Tövsiyə məktubları | 2 ədəd tövsiyə məktubu (yeni tarixli, imzalı və möhürlü olması mütləqdir). | | | |
| 15. | CV | Avropa İttifaqı CV nümunəsində (Europass format) doldurulmuş CV (namizədin şəkli əlavə olunmalı, təhsil almaq üçün müraciət etdiyi dildə və ya ingilis dilində hazırlanmalı). | | | |
| 16. | Ümumvətəndaş pasportu | Ümumvətəndaş pasportunun etibarlılıq müddətinin bitməsinə minimum 2 il qalmış. | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 17. | Sağlamlıq haqqında arayış | QİÇS, Hepatit B, C və ya başqa yoluxucu xəstəliklərin olmamasına dair tibbi arayış.<br><br>QEYD: 01 senytabr 2023-cü il tarixindən sonra alınan arayışlar;<br><br>Macarıstan tərəfi üçün müvafiq sağlamlıq haqqında sənədlərin təqdim olunması üçün son tarix 15.04.2024-cü ildir (qarşı tərəfin elektron ərizəsinə baxın). | | | |
| 18. | Hərbi bilet (hərbi xidmət keçirilibsə) və ya möhlət hüququ haqqında sənəd | Hərbi bilet və ya hərbi xidmətdən möhlət haqqında sənəd (ASAN xidmətdən alınan arayış).<br><br>Qeyd: Hazırda Azərbaycanda bakalavriat və magistratura təhsil səviyyələrinin sonuncu kursunda təhsil alan tələbələrə şamil edilmir; | | | |
| 19. | QEYD | - “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” və “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində təhsil almış, lakin Elm və Təhsil Nazirliyi ilə imzaladığı müqaviləyə əsasən 5 il ərzində ölkədə işləmək öhdəliyini yerinə yetirməmiş məzunların sənədləri qəbul edilməyəcəkdir;<br><br>- Dövlət sifarişi əsasında təhsil alanlar, həmçinin Dövlət proqramları və HTP çərçivəsində təhsil alanlar eyni təhsil səviyyəsi üzrə müraciət edə bilməzlər. | | | |